# Mənalı və şərəfli həyat yolu

**İnsan həyatı zirvələrin belinə dolanan cığıra bənzəyir. Bu cığırlar yolçulardan cəsarət, güclü iradə tələb edir. Bəzən onlar əlçatmaz, ünyetməz zirvələrə baxanda ümidsizliyə qapılıb geri dönürlər. Elə insanlar da var ki, yorulmur, daim ucalığa doğru can atırlar.**

İbrahimxəlil Adil oğlu İbrahimov 1938-ci il aprel ayının 13-də Qazax rayonunun Aşağı Əksipara kəndində sadə kəndli ailəsində anadan olub. Həmin kənd 1905, 1918 və 1988-ci illərdə ermənilərin təcavüzünə məruz qalmış, məcburi köçkün həyatı yaşamış və hazırda da yaşamaqdadır.

İbrahimxəlil körpə ikən atasını itirmişdir. Ailə başçısını itirmiş ana kolxozda sağıcı işləyərək beş uşaq — üç oğul və iki qız böyüdür. Ailənin sonbeşiyi olan İbrahimxəlil 1947-ci ildə orta məktəbin birinci sinfinə gedir. İlk gündən sinifdə şagird yoldaşlarından biliyinə və davranışına görə fərqlənir, dərslərindən əla qiymətlər alır.

O, onuncu sinfi rayonun ən böyük kəndi olan Daş Salahlıda əla qiymətlərlə bitirir və həmin il də Gəncə şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsinə qəbul olur.

İ.İbrahimov institutun birinci kursundan əlaçı və ictimaiyyətçi tələbə kimi institut rəhbərliyinin etimadını qazanır. Buna görə də institut Tələbə Həmkarlar Təşkilatının və Tələbə Elmi Cəmiyyətinin sədri seçilir. O, həm də elmi işlə məşğul olur. İnstitutun 3-cü kursundan Akademik C.M.Hüseynovun yeni hazırladığı bitkilərin məhsuldarlığına təsir edən "Neft Boy Maddəsi"ni sınaqdan keçirmək məqsədilə bu maddənin torpaqda bitkilər üçün ən qiymətli qida maddəsi olan azotun formalarına və qarğıdalı bitkisinin məhsuldarlığına təsirini öyrənmək üçün iki torpaq (boz və açıq-şabalıdı) tipində müxtəlif variantlarda təcrübələr aparmışdır.

Müsbət göstəricilərə əsaslanaraq kənd təsərrüfatı bitkilərindən yüksək məhsul almaq və torpaqda asan mənimsənilən azotun miqdarını artırmaq məqsədilə bir hektar torpaq sahəsinə 40 faizli 500 ml. "Neft Boy Maddəsi"nin (NBM) verilməsini təklif etmiş və apardığı elmi-tədqiqat işini diplom işi kimi müdafiə edərək Dövlət İmtahan Komissiyası tərəfindən əla qiymətlə qiymətləndirilmişdir.

1963-cü ildə institutu fərqlənmə diplomu ilə bitirmiş İbrahimxəlil İbrahimov institutda saxlanışlar.

İ.İbrahimov aspiranturada oxuduğu illərdə respublikanın "Mil-Muğan zonasında müxtəlif qida şəraitinin pambıq bitkisində azot mübadiləsinə və məhsuldarlığa təsiri" mövzusunda elmi-tədqiqat işi aparmış və dissertasiya işi yazmışdır. Dissertasiya işini müdafiədən əvvəl o, 1972-ci ildə Moskvada "Timiryazev Akademiyasında professor B.P.Pleşkovun dekan olduğu aqronomluq fakültəsinin elmi şurasında və Lomonosov adına Moskva Dövlət Universitetində akademik A.N.Makarovun rəhbərlik etdiyi əkinçilik kafedrasında məruzə ilə çıxış etmiş və hər iki müəssisənin müsbət rəyini almışdır. İ.İbrahimov 1972-ci ildə dissertasiya işini Azərbaycan SSR Elmlər Akademiyası Biologiya Elmləri bölməsi Birləşmiş Şurasında müdafiə etmiş və 47 gündən sonra Ali Attestasiya Komissiyasının qərarı ilə dissertasiya işi təsdiq olunmuş və ona kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi verilmişdir.

İbrahimxəlil müəllim 1975-ci ilin oktyabr ayında köçürmə yolu ilə Azərbaycan Meyvə-Tərəvəz Sənaye Birliyinin Kimyalaşdırma və Bitki Mühafizəsi İdarəsində rəis müavini vəzifəsinə təyin olunur. O, burada qısa müddət ərzində kollektivin hörmətini qazanaraq bilik və bacarığı ilə fərqlənir.

1976-cı ilin avqust ayında Quba rayonunda ezamiyyətdə olarkən rayonun "Şəfəq" qəzetinin 14 avqust tarixli nömrəsində Azərbaycan Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutunun direktoru M.Əmrahovun "Bağçılıqda vacib məsələlər" sərlövhəli məqaləsini oxumuş və məqalədə qeyd olunan fikirlərlə və meyvəçiliyi intensiv inkişaf etdirmək üçün verilən təkliflərlə razılaşmır. İbrahimxəlil müəllim direktorun verdiyi təklifləri maddə-maddə təhlil edərək bunların dünya alimlərinin uzun müddət apardıqları elmi təcrübələrinin nəticələrinə uyğun olmadığını elmi-nəzəri prinsiplə əsaslandırır və meyvəçiliyi intensiv inkişaf etdirmək üçün yeni təkliflər verir.

İ.İbrahimovun məqalə müəllifinə yazdığı cavab məktubu həmin qəzetin 23 sentyabr 1976-cı il tarixli nömrəsində dərc olunur.

Azərbaycan KP MK-nın kənd təsərrüfatı şöbəsinin tapşırığına əsasən hər iki məqalə Azərbaycan Meyvə-Tərəvəz Sənaye Birliyinin kollegiya iclasında müzakirə olunur və İ.İbrahimovun verdiyi təkliflər qəbul edilir.

İ.İbrahimov 1976-1984-cü illərdə "Azərbaycan Meyvə-Tərəvəz Sənaye Birliyində" və bu birliyin bazasında yaradılmış "Azərbaycan Meyvə-Tərəvəz Təsərrüfatı" Nazirliyində şöbə müdiri, idarə rəisi, baş idarə rəisi, nazir müavini əvəzi və nazirliyin kollegiya üzvü olmuşdur. Nazirlikdə işlədiyi müddətdə SSRİ Meyvə və Tərəvəz Təsərrüfatı Nazirliyinin Moskvada və müttəfiq respublikalarda keçirdiyi müxtəlif tədbirlərdə, müşavirə və seminarlarda, nazirliyin kollegiya iclaslarında onun çıxışı və təklifləri, nazirlik rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. Bunun nəticəsi olaraq 1984-cü ildə İ.İbrahimovu SSRİ Meyvə-Tərəvəz Təsərrüfatı Nazirliyinin Azərbaycan cins Tərəvəz Toxumçuluq Birliyinə rəis vəzifəsinə təyin edirlər.

İbrahimxəlil İbrahimov bu vəzifədə işləyərkən respublikanın, həm də Moskvanın etimadını doğrultmağa çalışmış və qısa müddət ərzində toxumçuluq sahəsində müsbət nəticələr almaq üçün birinci növbədə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasını möhkəmləndirməyi, müasir texnika əldə etməklə toxumçuluqda yeni mütərəqqi üsullardan istifadə etməyi bir məqsəd olaraq qarşısına qoymuşdur.

SSRİ miqyasında kələm toxumu əsasən Azərbaycanda Masallı rayonunun "Çapayev", Lənkəran rayonunun "Oktyabr" toxumçuluq sovxozlarında istehsal olunurdu. Hər iki sovxozda bitkinin şitillə əkilməsi, becərilməsi, toxum yetişdikdən sonra yığılması, daşınması, qurudulması və döyülməsi işləri yalnız əl əməyi ilə aparılırdı. Bu da 30-40% toxum itkisinə, artıq xərclərə, maya dəyərinin 2-3 dəfə yüksəlməsinə və nəhayət, əmək məhsuldarlığının çox aşağı olmasına səbəb olurdu.

İ.İbrahimov bu prosesi tam mexanikləşdirmək üçün yeni texnologiya işləyib təklif hazırlayır. Belə ki, əkin sxemini dəyişdirərək kələm şitillərinin şitil əkən maşınla əkilməsini, cərgəarası becərmə işlərini, xəstəlik və zərərvericilərə qarşı mübarizə aparılmasını, becərmə də çiləyici maşınlardan istifadə olunmasını təmin edir. Nəhayət, ən vacib məsələ olan toxumun yığılması üçün də yeni bir təklifi sınaqdan keçirir.

Kələm toxumunun kütləvi yetişmə fazasında toxum itkisinin qarşısını almaq üçün Sumqayıtın istehsal etdiyi insan və bitkilər üçün ziyansız olan PVA kleyinin 0,01%-li məhlulu hazırlanır və bir hektar sahəyə 800-1000 litr normasında OPŞ-15 markalı çiləyici maşınla toxumluq sahələrində çiləmə aparılır. Toxumluq sahələri PVA emulsiyası ilə çiləyəndən 5-7 gün sonra yığmaq üçün toxumluq sahəni taxılyığan CK-5 "Niva" kombaynla yığmağı kombaynın setkalarını və hava sorucu sistemini kələm toxumunun ölçülərinə uyğunlaşdırılması şərti ilə təklif edir.

Moskva həmin təklifi bəyənir və onu yerində sınaqdan keçirmək üçün Azərbaycana mütəxəssislər göndərilir. Mütəxəssis qrupu bu texnologiyanın tətbiq edilməsini yüksək qiymətləndirdikdən sonra, 1985-ci ildə Nazirlik tərəfindən Azərbaycanın Masallı rayonunda "Emulsiya kleyinin tətbiq edilməsi ilə kələm toxumunun yığılmasının mexanikləşdirilməsi" mövzusunda Ümumittifaq seminar-müşavirəsi təşkil olunur. İ.İbrahimovun bu texnologiyası seminar-müşavirədə əyani olaraq sınaqdan keçirilir və yüksək qiymətləndirilir. Bu mütərəqqi texnologiyanın ittifaq miqyasında geniş tətbiq olunması tövsiyə olunur.

İ.İbrahimovun işlədiyi qısa müddət ərzində Tovuz rayonunda 1 nömrəli toxumçuluq sovxozunda 400 başlıq müasir tipli mal tövləsi, 450 nəfərlik mədəniyyət evi, məişət evi, 1941-1945-ci illər müharibə iştirakçılarına xatirə kompleksi, Gədəbəy və Qusar rayonlarının kartof toxumçuluq sovxozlarında kartof toxumunu saxlamaq üçün müasir anbarlar tikilməsinə nail olmuşdur. Eləcə də Xaçmaz rayonu Nabran sovxozunda 2 mərtəbəli idarə binası, tədarük məntəqələri və başqa istehsal sahələri tikdirmişdir. Birliyin toxumçuluq təsərrüfatlarında tərəvəz toxumlarının istehsalı və tədarükündə yeni mütərəqqi texnologiyalar tətbiq etməklə məhsulun maya dəyəri 3-4 dəfə azalmış, rentabellik isə 25-30 faiz artmışdır.

Respublikanın çətin günlərində Abşeron rayon Partiya Komitəsinin birinci katibi S.N.Murtuzayev çoxillik iş təcrübəsinə bələd olduğu İbrahimxəlil İbrahimovu rayona dəvət edir və burda son illərdə məhsul istehsalının ümumi həcminin və artım sürətinin xeyli azaldığını bildirir. Səbəbləri araşdırarkən belə qərara gəlirlər ki, bunun başlıca səbəbi ictimai istehsala marağın azalması, torpaq üzərində sahiblik istəyinin və məsuliyyətinin olmaması və maddi maraq prinsipinin düzgün həyata keçirilməməsidir. Bunun üçün rayonda kəndlilərin torpaq üzərində əsl sahibliyi bərpa olunmalı, onlara azad əmək şəraiti yaradılmalıdır. Bunun yeganə yolu isə rayonda kəndli-fermer təsərrüfatları, istehsal kooperativləri və kiçik müəssisələr yaradılmasıdır. Bunların yaradılması və fəaliyyətlərinin tənzimlənməsi üçün həmin dövrdə bir hüquqi sənəd belə yox idi. İ.İbrahimov bu məsələni öz üzərinə götürür və qısa müddət ərzində həmin qurumların yaradılması və fəaliyyətlərini tənzimləyən əsasnamə hazırlayır. Əsasnamə rayon partiya bürosunda müzakirə olunur. Bu müvəqqəti əsasnamə Rayon Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin qərarı ilə təsdiq edilərək bütün təsərrüfatlara göndərilir və rayon zəhmətkeşlərinə müraciət qəbul edilir.

İ.İbrahimov rayonun bütün sahələri üzrə mövcud problemləri və onun həlli yolları haqqında tədbirlər planı işləyib hazırlayır. Bu sənəd 20 mart 1991-ci il tarixli 93 saylı məktub ilə Azərbaycan KP Mərkəzi Komitəsinə göndərilir.

Abşeron rayonundan ayrılmış və yeni yaradılan Xızı rayonunda kadr problemini nəzərə alan Prezident Aparatı İbrahimxəlil İbrahimovu 1992-ci ildə Xızı rayon İcra Hakimiyyəti başçısının sosial-iqtisadi məsələlər üzrə müavini vəzifəsinə göndərir.

1994-cü il noyabr ayının 5-də Azərbaycan Respublikası Prezidentinin Aparatında keçirilən müşavirədə Heydər Əliyev Xızı və Zaqatala rayonlarına tapşırıq vermişdir ki, həmin rayonlar müstəqil olaraq islahatlar aparsınlar. Prezidentin İcra Aparatının rəhbəri R.Mehdiyev tərəfindən təsdiq edilmiş Prezident tapşırığı icra üçün 21 aprel 1995-ci il tarixli 8/7-1-956 nömrəli məktubla Xızı rayon İcra Hakimiyyətinin başçısına göndərilmş və bu işlərin görülməsi İ.İbrahimova həvalə edilmişdir.

İ.İbrahimov rayonda Aqrar və torpaq islahatlarının aparılması haqqında 41 maddədən ibarət proqram hazırlamış, kolxoz və sovxoz əmlaklarının əmlak payçılarını, torpaq almaq hüququ olanları, təsərrüfatların debitor və kreditor borclarının müəyyənləşdirilməsini, onların ödənilmə yollarının öyrənilməsini və başqa problemləri həll etmək üçün mütəxəssis komissiyaları yaradılır. Hazırlanmış proqram əsasında respublikada birinci olaraq 15 təsərrüfatda, 28 kənd və qəsəbələrdə aqrar torpaq islahatı aparılmış və nəticələri haqqında ümummilli lider Heydər Əliyevə məlumat verilmişdir.

Xızı rayonunda aparılmış aqrar və torpaq islahatlarının yekunları ulu öndər Heydər Əliyevin iştirakı ilə keçirilən Dövlət Aqrar İslahat Komissiyasının iclasında İbrahimxəlil İbrahimovun məruzəsi dinlənilmiş, müzakirə edilmiş və bəyənilmişdir. Ulu öndər Heydər Əliyev respublikanın bütün rayonlarına Xızı rayonunun təcrübəsini öyrənməyi tapşırığını vermişdir.

İ.İbrahimov 2003-cü ilə qədər Xızı rayonunda işləmiş və həmin ildən təqaüdə çıxmışdır.

2008-ci ildən Dövlət İdarəçilik Akade-



miyasının Dövlət idarəetməsi və menecment kafedrasının dosenti, DİA-nın təcrübə rəhbəri vəzifəsində çalışan İbrahim müəllim Akademiyanın ictimai həyatında fəal iştirak edir. İbrahim müəllim DİA-da işlədiyi qısa müddətdə respublikada yeni qurum olan və Akademiyada tədris olunan "Bələdiyyə idarəçiliyi", "Bələdiyyə idarəçiliyinin beynəlxalq təcrübəsi", "İdarəçilikdə kargüzarlıq" və "Sənədlərlə iş" fənləri üzrə fənn proqramları və Təhsil Nazirliyinin əmrinə (qrifinə) əsasən dərsliklər hazırlayıb nəşr etdirmişdir. "Azərbaycan Respublikasının neft strategiyası" mövzusunda metodik vəsait də onun tərəfindən hazırlanıb çap olunmuşdur. Müxtəlif beynəlxalq konfranslarda çıxış etmiş İbrahimxəlil müəllimin 12 elmi məqaləsi dərc edilmişdir. İ.İbrahimov DİA-nın böyük Elmi Şurasının üzvü, Akademiyanın təcrübə rəhbəridir və eyni zamanda Dövlət idarəetməsi və menecment kafedrasında dosent vəzifəsində çalışır.

İ.İbrahimov əmək fəaliyyəti dövründə 6 səmərələşdirici təklif vermiş, 5 ədəd tərəvəz bitkiləri üzrə dövlət standartı—texniki şərtlər (RST-537-83; 545-84; 546-84; 546-82 və 537-82) hazırlamış, 100-ə yaxın elmi məqalə dərc etdirmiş, tərcümə ilə məşğul olmuş, bir sıra dərsliklərin elmi redaktoru olmuş, monoqrafiyalar, metodik vəsaitlərin 8 fənn üzrə proqramların və 2 adda dərslik kitabının müəllifidir.

İbrahimxəlil Adil oğlu İbrahimovun işlədiyi dövrdə əməyi hər zaman yüksək qiymətləndirilmişdir. O, müxtəlif vaxtlarda SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin 2 qızıl, gümüş və bürünc medallarını, qazanmış, Sosializm yarışının qalibi olmuş, XI beşilliyin qalibi döş nişanları və əməkdə fərqlənmə medalı ilə təltif edilmişdir.

Respublikada kənd təsərrüfatı elminin fəal təbliğatçısı kimi, dəfələrlə Azərbaycan Bilik Cəmiyyətinin Fəxri fərmanlarını və diplomlarını almışdır.

Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçilərinin Həmkarlar İttifaqı Rəyasət Heyətinin ictimai rəy sorğusuna və onun keçirdiyi mənalı həyat yoluna əsaslanan qərarı ilə İ.İbrahimov 2014-cü ildə "Şərəfli ömür yolu" media mükafatına layiq görülmüşdür.

Hazırda o, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında pedaqoji fəaliyyət ilə yanaşı "Biznes mühitində qlobal rəqabətliliyin öyrənilməsi" mövzusunda elmi-tədqiqat işi aparır.

İbrahimxəlil müəllim sadəliyi, təvazökarlığı ilə həm tələbələrin, həm də professor-müəllim kollektivinin dərin rəğbətini qazanmışdır. İbrahimxəlil müəllim heç də həmişə rahat və asan olmayan bu şərəfli həyat yolundakı uğurlarını çətin və şərəfli zəhmətin hesabına əldə etmişdir. Həyatının bu müdrik çağında və 80 illik yubileyi münasibətilə İbrahimxəlil müəllimi təbrik edir, ona cansağlığı və işlərində uğurlar arzulayıram.

**Akif BAYRAMOV,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Dillər kafedrasının müdiri, filologiya elmləri doktoru, professor, əməkdar müəllim.**